# İnzibati binaların tikintisi və təmiri layihələrinin korrupsiya riskləri üzrə monitorinqi

# YEKUN HESABAT


***Müəlliflər:*** *Alı Rzayev (Layihənin rəhbəri)*
*Zöhrab İsmayılov (Ekspert)*


**Bakı - 2009**

## Mündəricat


Giriş 3

1. İnzibati binaların tikintisi və təmiri layihələri üzrə xülasə 4

    1.1. 2007-2008-ci illərdə inzibati binaların tikintisi və təmiri layihələri 4

    1.2. Ən iri inzibati bina layihələri 8

    1.3. İnzibati bina layihələri ilə başqa büdcə xərcləri arasında müqayisələr 9

2. Monitorinq üçün seçilmiş layihələr 11

    2.1. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binalarının təmiri 11

    2.2. Dövlət Statistika Komitəsinin inzibati binasının təmiri 11

    2.3.Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin inzibati binasının təmiri 12

    2.4. Mərkəzi Seçki Komissiyasının yeni inzibati binasının tikintisi 12

    2.5. İqtisadi İnkişaf Nazirliyinin yeni inzibati binasının tikintisi 12

3.İnzibati binaların tikintisi və təmiri layihələrinin korrupsiya riskləri üzrə monitorinqi 14

    3.1.Ekologiya və Təbii Sərvətlər Nazirliyi 15

    3.2.Dövlət Statistika Komitəsi 21

    3.3. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 25

    3.4. İqtisadi İnkişaf Nazirliyi 25

    3.5. Mərkəzi Seçki Komissiyası 25

4. İnzibati binaların təmir-tikinti layihələri üzrə korrupsiya riskinin qiymətləndirilməsi 26

## Giriş

Azad İqtisadiyyata Yardım İctimai Biriliyi Milli Büdcə Qrupunun 2008-ci il strategiyası çərçivəsində "Dövlət investisiya xərclərinin izlənməsi və korrupsiya riskləri üzrə tədqiqatı, nəticələrin vəkilliyi" layihəsini həyata keçirib. Layihəyə uyğun olaraq dövlət investisiya xərcləri çərçivəsində maliyyələşdirilən inzibati binalarının tikintisi və təmiri layihələri korrupsiya riskləri üzrə monitorinq edilib. Bu hesabat həmin monitorinqin nəticələrini əhatə edir.

AİYİB-in dövlət investisiya xərcləri çərçivəsində məhz bu istiqaməti seçməsi 2007-2008-ci illərdə dövlət orqanlarına məxsus inzibati binaların təmir-tikintisi və yenidən qurulması üçün ayrılmış vəsaitlərin kəskin artması ilə bağlıdır. 2008-ci ildə 53 dövlət, mərkəzi və yerli icra orqanının inzibati binalarının tikintisi və təmiri üçün dövlət büdcəsindən vəsait ayrılıb və bunlardan 30-u 2007-ci ildə başlayıb davam edən layihələrdir.

Dövlət qurumlarının inzibati binalarının tikintisi və təmiri layihələri çoxsaylı problemlərlə icra olunur. Layihələrin smeta sənədləri mövcud olsa da onlar tez-tez dəyişdirilir, bəzən işlər yüksək səviyyəli məmurları qane etmədiyindən yenidən görülür, bir sıra hallarda layihədən kənarlaşmalar baş verir və əlavə edilir. Bu layihələrin əksəriyyətinin aydın məqsədi və Texniki-İqtisadi Əsaslandırması da yoxdur. Layihələrin bir çoxuna dövlət qurumları rəhbərlərinin təkliflərinə və təşəbbüslərinə əsasən Azərbaycan Respublikası prezidentinin qərarı əsasında başlanılır.

Layihələrin əksəriyyəti üzrə tender keçirilmir və podratçı şirkətlər subyektiv seçim əsasında icra prosesini həyata keçirirlər.

Layihələr üzrə ictimai hesabatlıq yox səviyyəsindədir. Dövlət qurumlarının internet səhifələrində sifarişçisi olduqları dövlət investisiya layihələri barədə nəinki hesabat, heç ümumi məlumatlar da yoxdur.

İnzibati bina layihələrinin təhvil verilməsi də bir sıra problemlərlə müşaiyət olunmaqdadır. Layihələrin icrası üçün müasir keyfiyyət standartları tətbiq edilmədiyindən, nəticələr an yaxşı halda subyektiv mütəxəssis rəyi əsasında təhvil götürülür.

Monitorinq prosesində AİYİB inzibati bina layihələrini izlədiyi dövlət qurumlarına informasiya sorğuları göndərib. Sorğularda dövlət qurumlarından ümumi məlumatlar istənilib. İnformasiya sorğusunun ünvanlandığı dövlət qurumlarından Ekologiya və Təbii Sərvətlər və İqtisadi İnkişaf nazirlikləri məlumatları vaxtında təqdim ediblər. Qalan dövlət qurumları (Dövlət Statistika Komitəsi, Mərkəzi Seçki Komissiyası və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi) sorğuya cavab verməyiblər. Bu da onlara qarşı məhkəmə iddiasının qaldərəlmasına səbəb olub. Məhkəmə prosesinin gedişində Dövlət Statistika Komistəsi də sorğuya cavab verib. O biri dövlət qurumları ilə məhkəmə prosesi hazırda Ali Məhkəmənin baxışındadır.

# 1.İnzibati binaların tikintisi və təmiri layihələri üzrə xülasə

## 1.1. 2007-2008-ci illərdə inzibati binaların tikintisi və təmiri layihələri

Dövlət orqanlarına məxsus inzibati binaların təmiri, tikintisi və yenidən qurulması üçün ayırmalar büdcə investisiya xərclərinin mühüm hissəsini təşkil edir. 2007 və 2008-ci illərdə inzibati binaların təmir-tikintisinə yönəlmiş büdcə investisiya xərcləri kəskin artmağa başlayıb. Əgər 2007-ci ildə büdcə investisiya xərclərindən dövlət orqanlarının inzibati binaları üçün 336089,5 min manat[1] ayrılıbsa, 2008-ci ildə bu göstərici 78,6% artaraq 600240 min manat[2] təşkil edib. Lakin 2009-2012-ci illərin proqnoz göstəricilərinə görə, cari ildən bu xərclər azalmalıdır: 2009-cu ildə 489100,8 min manat, 2010-cu ildə 466504,3 min manat, 2011-ci ildə 445791,6 min manat, 2012-ci ildə isə 414675,3 min manat.[3]

**2007-2009-cu illərdə dövlət büdcəsindən inzibati binaların tikintisi və təmirinə ayrılmış vəsaitlər**

| Göstəricilər | 2007 | 2008 | 2009 (proqnoz) |
|---|---|---|---|
| İnzibati bina layihələrinə ayrılmış vəsaitlər (min manatla) | 336089,5 | 600240,0 | 489100,8 |
| Ümumi büdcə investisiyalarında payı (%-lə) | 17,54 | 13,87 | 10,37 |




Dövlət qurumları arasında inzibati binalarının təmir-tikintisi üçün son iki ildə daha çox büdcə vəsaiti alanlar Prezident Aparatı, Nazirlər Kabineti, Milli Məclis, İqtisadi İnkişaf, Xarici İşlər, Milli Təhlükəsizlik, Müdafiə, Müdafiə Sənayesi, Daxili İşlər, Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətləri, Ali Məhkəmə və Mərkəzi Seçki Komissiyasıdır.

2008-ci ilin büdcə investisiya xərclərindən inzibati binalara ayrılmış vəsaitlərin 258062,5 min manatı (42,99%) mərkəzi, 10882,5 min manatı (1,81%) yerli icra hakimiyyəti orqanlarının

[1] Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli 42s saylı sərəncamına 1-ci və 2-ci əlavələr
[2] Nazirlər Kabinetinin 6 fevral 2008-ci il tarixli 44 s sərəncamına 1 saylı və 2 saylı əlavələr
[3] Azərbaycan Respublikasının 2009-cu il Dövlət Büdcəsi Zərfi

payına düşür. Həmçinin, inzibati bina layıhələrinə ümumi ayrılmış vəsaitlərin 24,78%-i (148750,0 min manat) müdafiə və təhlükəsizlik qüvvələrinə, 21,82%-i (131016,0 min manat) məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarına, 1,99%-i (12 mln. manat) Milli Məclisə, 6,58%-i isə (39529,0 min manat) digər dövlət qurumlarına (*Hesablama Palatası, Milli Elmlər Akademiyası, Mərkəzi Seçki Komissiyası, Strateji Araşdırmalar Mərkəzi, Məcburi köçkünlərin sosial inkişafı Fondu, "Meliorasiya və Su Təsərrüfatı" ASC, Bakı Metropoliteni İdarəsi və Hökumət Evi*) ayrılıb.

**2007-2008-ci illərin büdcə investisiya xərclərindən dövlət qurumlarının inzibati binalarının təmir-tikintisinə ayrılmış vəsaitlər (min manat)**

| Dövlət orqanları | 2007 | Xüsusi çəkisi %-lə | 2008 | Xüsusi çəkisi %-lə | Artım tempi %-lə |
|---|---|---|---|---|---|
| Mərkəzi icra hakimiyyəti orqanları | 136312,5 | 40,5 | 258062,5 | 42,9 | 89,3 |
| Yerli icra hakimiyyəti orqanları | 3443 | 1,0 | 10882,5 | 1,8 | 216,1 |
| Müdafiə və təhlükəsizlik qüvvələri | 85500 | 25,4 | 148750 | 24,7 | 74,0 |
| Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları | 75531 | 22,4 | 131016 | 21,8 | 73,5 |
| Milli Məclis | 14063 | 4,1 | 12000 | 1,9 | -14,7 |
| Digər dövlət orqanları | 21240 | 6,3 | 39529 | 6,5 | 86,1 |
| **Cəmi** | **336089,5** | **100** | **600240** | **100** | **78,6** |

İnzibati binaların təmir-tikintisi üçün ayrılmış büdcə vəsaitlərinin 2008-ci ildə artımı bütün dövlət qurumları qrupları üzrə baş verib. Əvvəlki illə müqayisədə mərkəzi icra hakimiyyəti orqanlarına 89 %, yerli icra hakimiyyəti orqanlarına 3,16 dəfə, müdafiə və təhlükəsizlik qüvvələrinə 74 %, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə 73 %, digər dövlət orqanları üzrə 86 % artıq vəsait ayrılıb. Yalnız Milli Məclis üçün yeni binanın tikintisinə ayrılan vəsaitlər 2008-ci ildə əvvəlki ilə nisbətən 2063 min manat (14,7 %) azalaraq 12 mln. manat təşkil edib.

Hər bir istiqamət üzrə inzibati binalara çəkilən xərclərin illər üzrə ümumi investisiya xərclərindəki xüsusi çəkisində cüzi dəyişmələr qeydə alınıb. Mərkəzi icra hakimiyyəti orqanlarının inzibati binaları üçün ayrılmış vəsaitlər ümumi büdcə investisiyalarının 2007-ci ildə 7,1 %-ni, 2008-ci ildə isə 5,96 %-ni təşkil edib. Bu göstərici yerli icra hakimiyəti orqanları üçün müvafiq qaydada 0,17 % və 0,25 %, müdafiə və təhlükəsizlik qüvvələri üçün 4,46 % və 3,43 %, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üçün 3,94 % və 3,02 %, Milli Məclis üçün 0,73 % və 0,27 %, digər dövlət orqanları üçün 1,1 % və 0,91 % həddindədir.[4]

Qeyd olunan sahələri ayrı-ayrılıqda nəzərdən keçirərkən aydın olur ki, 2008-ci ildə inzibati binaların tikintisi və təmirinə ayrılmış vəsaitlərdə baş verən artımlar əsasən bir neçə dövlət orqanın hesabına baş verib. Belə ki, mərkəzi icra hakimiyyəti orqanlarından Prezidentin İşlər İdarəsi, Maliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Ekologiya və Təbii Sərvətlər və Xarici İşlər nazirlikləri, Dövlət Miqrasiya Xidməti, Dövlət Statistika Komitəsi və Milli Arxiv İdarəsi onlar üçün ayrılmış inzibati bina xərclərinin artım səviyyəsinə görə fərqlənirlər. Prezidentin İşlər İdarəsinə ayrılan vəsait 2008-ci ildə əvvəlki ilə nisbətən 47,9% artaraq 130 mln. manata çatıb.

[4] Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli 42s saylı sərəncamına 1-ci və 2-ci əlavələr və 6 fevral 2008-ci il tarixli 44 s sərəncamına 1 saylı və 2 saylı əlavələr

Eləcə də 2007-ci ilə nisbətən 2008-ci ildə Maliyyə Nazirliyinə 74,6%, Milli Arxiv İdarəsinə 65,5% artıq vəsait ayrılıb. Həmçinin, artım Ekologiya və Təbii Sərvətlər Nazirliyi üzrə 2,5 dəfə, Xarici İşlər Nazirliyi üzrə 4,8 dəfə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə 5,1 dəfə, Dövlət Miqrasiya Xidməti üzrə 5 dəfə, Dövlət Statistika Komitəsi üzrə isə 12,9 dəfə təşkil edir.

**2008-ci ildə inzibati binaların təmiri və tikintisinə ayrılmış vəsaitlərin dövlət qurumları üzrə strukturu**




Yerli icra hakimiyyəti orqanları üzrə müşahidə olunan artım, əsasən Yasamal, Suraxanı, Abşeron və Cəbrayıl rayon icra hakimiyyətlərinin inzibati binalarının təmiri üçün ayrılmış vəsaitlər hesabına qeydə alınır. Belə ki, 2008-ci ildə Yasamal RİH-ə yeni inzibati binanın tikintisi üçün 2007-ci ildə ayrıldığından 880,2 min manat artıq olmaqla daha 1880,2 min manat ayrılıb. Eyni şəkildə Suraxanı RİH üçün 2008-ci ildə daha 2997,3 min manat ayrılıb ki, bu da əvvəlki ildə ayrılmış vəsaitdən 1997,3 min manat artıqdır. Abşeron və Cəbrayıl RİH-lər üçün inzibati bina xərcinin ayrılmasına isə 2008-ci ildən başlanıb və bu, müvafiq surətdə 2500,0 min manat və 1000,0 manat təşkil edib.

Müdafiə və təhlükəsizlik qüvvələri üzrə inzibati bina xərclərinin 2007-ci ildən 2008-ci ilə olan artımında isə bu sahəyə aid edilən bütün qurumların payı var. Onların içərisində Müdafiə Nazirliyinə ayrılmış vəsaitlərin artım həddi daha yüksəkdir. 2008-ci ildə bu nazirliyə 22 mln. manat ayrılıb ki, bu da əvvəlki ildə ayrılmış vəsaitdən 14,6 dəfə çoxdur. İnzibati binaların tikintisi və təmiri xərclərinin 2008-ci ildə əvvəlki ilə nisbətətən artımı, bu sahəyə aid edilən Dövlət Sərhəd Xidməti üçün 89%, Müdafiə Sənayesi Nazirliyi üçün 40%, Milli Təhlükəsizlik Nazirliyi üçünsə 35% təşkil edib.

Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanları üzrə qeydə alınan 73,5% artımda əsas payı olanlar Ədliyyə və Daxili İşlər nazirlikləri hesab oluna bilərlər. Belə ki, 2008-ci ildə DİN-ə ayrılan tikinti və təmir xərcləri əvvəlki illə müqayisədə 6 dəfə, Ədliyyə Nazirliyinə ayrılan tikinti və təmir xərcləri isə 4,1 dəfə çox olub. Eləcə də 2008-ci ildə əvvəlki illə müqayisədə Baş Prokurorluğa 52%, Ali Məhkəməyə isə 43% çox tikinti və təmir xərcləri ayrılıb. Bunlardan başqa, Hərbi Prokurorluğa, Bakı Apellyasiya Məhkəməsinə və Dövlət Gömrük Komitəsinə inzibati binaların təmiri üçün 2008-ci ildən vəsait ayrılmağa başlanıb ki, bu vəsaitlər də uyğun olaraq 3770,0 min manat, 1500,0 min manat və 3000,0 min manat təşkil edib.

Digər dövlət orqanları bölməsində isə diqqət cəlb edən Mərkəzi Seçki Komissiyasına ayrılan tikinti xərcləridir. MSK-ya yeni inzibati binanın tikintisi üçün 2008-ci ildə ayrılmış vəsait əvvəlki illə müqayisədə 4,4 dəfə vəya 15,5 mln. manat çoxdur. 2007-ci ildə MSK-ya göstərilən məqsəd üçün 4,5 mln. manat ayrılmışdısa, 2008-ci ildə daha 20 mln. manat ayrılıb.

Eləcə də, 2008-ci ilin büdcə investisiya xərclərindən bu kateqoriyaya daxil edilən Hesablama Palatasına 4 mln., Strateji Araşdırmalar Mərkəzinə 4 mln., Məcburi Köçkünlərin Sosial İnkişafı Fondu, "Meliorasiya və Su Təsərrüfatı" ASC və Bakı Metropoliteni İdarəsinin hər birinə 1 mln. manat ayrılıb ki, bunlar da yeni layihələrdir və hesabat ilində başlayıb. Bu da digər dövlət orqanları qrupu üzrə 2008-ci ilə olan inzibati binaların tikinti və təmiri xərclərinin artımına öz təsirini göstərib.

## 1.2. Ən iri inzibati bina layihələri

2007 və 2008-ci illərin büdcə investisiya xərclərinin bölgüsünə dair Nazirlər Kabinetinin sərəncamlarına əsasən dövlət qurumlarının obyektlərində (inzibati binalarında) təmir, tikinti və yenidənqurma işləri ilə bağlı ən iri layihələr hansılardır? AİYİB iri məbləğli layihələri seçmək üçün şərti meyar kimi iki ildə ayrılmış vəsaitin birlikdə 10 mln. manatdan çox olmasını götürüb. Bununla da 17 dövlət qurumunu fərqləndirmək mümkündür. Həmin qurumlar və qeyd olunan illərdə onlara ayrılmış vəsaitlər aşağıdakı cədvəldə göstərilir:

| Dövlət qurumları | 2007-ci il min manat | 2008-ci il min manat | Cəmi min manat |
|---|---|---|---|
| Prezidentin İşlər İdarəsi | 87900 | 130000 | 217900 |
| Nazirlər Kabineti | 8100 | 7800 | 15900 |
| Milli Məclis | 14063 | 12000 | 26063 |
| Maliyyə Nazirliyi | 7610 | 13290 | 20900 |
| Milli Təhlükəsizlik Nazirliyi | 37000 | 50000 | 87000 |
| Müdafiə Sənayesi Nazirliyi | 25000 | 35000 | 60000 |
| Daxili İşlər Nazirliyi | 7000 | 42100 | 49100 |
| Müdafiə Nazirliyi | 1500 | 22000 | 23500 |
| Fövqəladə Hallar Nazirliyi | 40000 | 9700 | 49700 |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2000 | 10331,1 | 12331,1 |
| Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 4417 | 11140 | 15557,5 |
| Dövlət Sərhəd Xidməti | 22000 | 41750 | 63750 |
| Xüsusui Dövlət Mühafizə Xidməti | 10800 | 40914 | 51714 |
| Ali Məhkəmə | 14000 | 20000 | 34000 |
| Mərkəzi Seçki Komissiyası | 4500 | 20000 | 24500 |
| Milli Arxiv İdarəsi | 5800 | 9600 | 15400 |
| Hökumət Evi | 12240 | 1200 | 13440 |

### 1.3. İnzibati bina layihələri ilə başqa büdcə xərcləri arasında müqayisələr

2008-ci ilin büdcə investisiya xərcləri (4326345,0 min manat) ümumi büdcə xərclərinin 39,1%-nə bərabər olmaqla, xüsusi çəkisinə görə bütün qalan bölmələrdən kəskin fərqlənir. Büdcə investisiya xərclərində dövlət qurumlarına məxsus inzibati binaların təmiri, tikintisi və yenidən qurulması üçün ayrılmış xərclərin (600240,0 min manat) xüsusi çəkisi isə 13,87% edir.

2008-ci ildə büdcədən inzibati bina layihələrinə ayrılan vəsaiti başqa sahələrə ayırmalarla müqayisə etdikdə maraqlı nəticələr ortaya çıxır. Məsələn, həmin il büdcənin sosial müdafiə xərcləri (793954,5 min manat) inzibati bina layihələrinə yönəlmiş investisiya xərclərindən cəmi 32,2% artıq olub. Səhiyyə xərcləri isə (385802,2 min manat) inzibati binaların təmir-tikinti xərclərindən 35,7% azdır. 2008-ci ilin büdcəsindən iqtisadi fəaliyyətə ayrılmış vəsait (326565,7 min manat) inzibati bina layihələrinə yönəlmiş xərclərin təxminən yarısı qədərdir. Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanması xərcləri də (589362,2 min manat) inzibati binaların təmir-tikinti xərcinə çatmır.

2008-ci ildə məhkəmə hakimiyyətinin saxlanmasına 37491,9 min manat büdcə vəsaiti ayrıldığı halda, təkcə Ali Məhkəmə üçün yeni inzibati binanın tikintisinə 20000,0 min manat ayrılıb. Eləcə də Milli Təhlükəsizlik Nazirliyinin binalarının təmiri üçün ayrılmış vəsait (50000,0 min manat) bütövlükdə milli təhlükəsizlik qüvvələrinin saxlanması xərclərinə (75635,8 min manat) yaxınlaşır.[5]

Yaxud 2008-ci ilin büdcəsindən Prezidentin İşlər İdarəsinə məxsus binalar üçün ayrılmış vəsaitlər (130 mln. manat) elmə ayrılmış vəsaitdən (71663,7 min manat) 81%, iqtisadiyyatın çoxsahəli inkişaf layihələrinə ayrılmış vəsaitdən isə (91864,2 min manat) 41% çox olub. Bu vəsait hətta 2008-ci ilin büdcə investisiya xərclərindən Bakı və rayonlarda su təchizatı və kanalizasiya sisteminin yaxşılaşdırılması üçün "Azərsu" ASC-yə (120 mln. manat) və ekologiya, kənd təsərrüfatı, sahibkarlıq və sosial təminat sahələrinə birlikdə (121982,7 min manat) ayrılmış vəsaitlərdən də çoxdur.

**2008-ci ildə Prezidentin İşlər İdarəsinin təmir-tikinti xərcləri ilə bəzi vacib sahələrə ayrılmış vəsaitlərin müqayisəsi (min manat)**




[5] 2008-ci ilin dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının qanunu

2007-2008-ci illərdə büdcə investisiya xərclərindən Xanlar, Oğuz, Zaqatala, Daşkəsən, Şirvan (Əli Bayramlı), Salyan, Sabirabad, Şamaxı, Yardımlı, Qax, Tovuz, Gədəbəy, Dəvəçi, Ağstafa, Naftalan, Quba, Xaçmaz şəhər və rayonlarında mərkəzi xəstəxanaların tikintisi, təmiri və inventar-avadanlıqlarla təchiz edilməsi layihələrinə (ümumilikdə 17 layihə) birlikdə 28559,0 min manat ayrılıbsa, Prezident yanında Tibb Xidmətinə 28400,0 min manat ayrılıb.

2008-ci ilin büdcə investisiya xərclərindən Respublika Talassemiya Mərkəzinin tikintisinə 11000,0 min manat ayrıldığı halda Mərkəzi Seçki Komissiyasına yeni binanın tikintisi üçün 20000,0 min manat ayrılıb.

Və ya Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə 2007-2008-ci illərdə Respublika Doğum Evinin əsaslı təmiri, avadanlıq və inventarla təchizi üçün 6500,0 min manat (4000,0 min manat 2007-ci ildə, 2500,0 min manat 2008-ci ildə), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzi aparatının inzibati binasinda yenidənqurma işlərinin aparılması və avadanlıqların alınmasına isə bundan təxminən 2 dəfə çox - 12231,1 min manat dövlət vəsaiti ayrılıb.

## 2. Monitorinq üçün seçilmiş layihələr

AİYİB monitorinq üçün mərkəzi icra orqanının inzibati binalarının tikinti və təmiri layihələrini seçib. Layihələr seçilərkən onların maliyyə həcmi, 2007-2008-ci illəri əhatə etməsi, müxtəlif sahələrə aid olması, habelə mövcud inzibati binaların normal görünüşə malik olmaları əsas götürülüb.

### 2.1. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binalarının təmiri

2008-ci ilin büdcə investisiya xərclərinin sifarişçi təşkilatlar və obyektlər arasında bölgüsünə dair Nazirlər Kabinetinin 6 fevral 2008-ci il tarixli 44s saylı sərəncamında göstərildiyinə görə, həmin ildə Nazirliyin inzibati binalarına xərclənmək üçün 11140 min manat ayrılıb.[6] Bu vəsaitin, qeyd olunan sərəncama 1 saylı əlavəyə əsasən, 940,0 min manatı nazirliyin Bakıdakı inzibati binalarının təmiri, 200 min manatı Xaşmaz, Bərdə, Xanlar, Daşkəsən, Yardımlı meşə mühafizəsi və bərpası müəssisələrinə inzibati binaların tikintisi üçün, 2 saylı əlavəyə əsasən isə 10000 min manatı yeni inzibati şəhərciyin salınması məqsədilə nəzərdə tutulub.

- ✓ *Nazirlikdən AİYİB-in müvafiq sorğusuna verilən rəsmi cavabda bildirilir ki, Nazirlər Kabinetinin 6 fevral 2008-ci il tarixli 44s saylı sərəncamına 2 saylı əlavədə ETSN-ə yeni inzibati şəhərciyin salınması məqsədilə ayrıldığı göstərilən 10000,0 min manat əslində bu məqsədlə yox, "XXI əsrin ekoloji cəhətdən davamlı yaşayış məntəqəsi" adlı layıhənin reallaşdırılması üçün ayrılıb.*

2007-ci ilin büdcəsindən isə ETSN-in inzibati binalarının tikintisi və təmirinə 4417,5 min manat ayrılıb ki, bunun da 2500,0 min manatı Nazirliyin Bakı şəhəri B.Ağayev küçəsi 100A ünvanda yerləşən inzibati binasının təmirinə, 1610,5 min manatı Bakı şəhəri H.Əliyev prospekti 50 ünvanda yerləşən inzibati binasının əsaslı tikinti və təmirinə yönəlib.[7] Qalan 307,0 min manat Yalama, Cəngi, Yevlax, Daşkəsən, Qaradağ meşə mühafizəsi və bərpası müəssisələrinə inzibati binaların tikintisi üçün nəzərdə tutulur. Göründüyü kimi, son iki ilin büdcə investisiya xərclərindən ETSN-in yalnız mərkəzi inzibati binalarının təmirinə 5050,5 min manat ayrılıb.

### 2.2. Dövlət Statistika Komitəsinin inzibati binasının təmiri

2008-ci ilin büdcə investisiya xərcləri çərçivəsində DSK-ya inzibati binalarının təmirinə 2662,0 min manat ayrılıb.[8] Bunun 1502,0 min manatı Komitənin mərkəzi inzibati binasının əsaslı təmirinə, qalan 1160,0 min manatı isə rayonarda Statistika İdarələri üçün inzibati binaların (cəmi 8 inzibati bina) tikintisinə yönəlib.

2007-ci ilin investisiya xərclərindən isə Komitənin mərkəzi inzibati binasının təmirinə 206,0 min manat ayrılıb.[9] Beləliklə, 2007-2008-ci illərdə DSK-nın mərkəzi inzibati binasının təmirinə, Nazirlər Kabinetinin müvafiq sərəncamlarına görə, 1708,0 min manat investisiya xərci nəzərdə tutulub.

- ✓ *Lakin DSK-dan AİYİB-in informasiya sorgusuna verilən cavabda göstərilir ki, 2007-ci ilin investisiya xərclərindən Komitənin mərkəzi inzibati binasının təmirinə 484,2 min manat ayrılıb. Bu isə Nazirlər Kabinetinin müvafiq sərəncamında qeyd olunan məbləğdən 278,2 min manat artıq olmaqla fərqlənir.*

---

[6] Nazirlər Kabinetinin 6 fevral 2008-ci il tarixli 44s saylı sərəncamına 1-ci və 2-ci əlavələr
[7] Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli 42s saylı sərəncamına 1-ci və 2-ci əlavələr
[8] Nazirlər Kabinetinin 6 fevral 2008-ci il tarixli 44s saylı sərəncamına 1-ci əlavə
[9] Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli 42s saylı sərəncamına 1-ci əlavə

## 2.3.Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin inzibati binasının təmiri

Nazirliyə məxsus inzibati binalarin tikintisi və təmiri üçün 2008-ci ilin büdcəsindən 10331,1 min manat ayrılıb. Bu məbləğ həmin ildə inzibati binalıarın təmir-tikintisinə ayrılmış ümumi büdcə vəsaitinin 1,73%-nə bərabərdir. Bundan başqa, eyni məqsədlə Nazirlik 2007-ci ilin büdcə investisiya xərclərindən 2000,0  min manat alıb.

2008-ci ildə ayrılmış vəsait, həmin ilin büdcə investisiya xərclərinin sifarişçi təşkilatlar və obyektlər arasında bölgüsünə əsasən, Nazirliyin mərkəzi aparatının inzibati binasında yenidənqurma işlərinin aparılmasına və ümumi sayı 5 olmaqla respublikanın müxtəlif şəhər və rayonlarında Əhalinin Sosial Müdafiə Mərkəzləri üçün inzibati binaların tikintisinə yönəldilib. Nazirliyin mərkəzi aparatının inzibati binasında yenidənqurma işlərinə 10231,1 min, şəhər və rayonlarda ƏSMM inzibati binalarının tikintisinə 100,0 min manat ayrılıb.[10]

2007-ci ildə ayrılmış 2000,0 min manat isə Nazirliyin mərkəzi aparatının inzibati binasında yenidənqurma işlərinin aparılması üçün nəzərdə tutulub.[11]
Beləliklə, NK-nın müvafiq sərəncamlarına görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzi aparatının inzibati binasında yenidənqurma işlərinin aparılması üçün son iki ildə büdcə investisiya xərclərindən 12231,1 min manat ayrılıb.

- ✓ *Lakin Nazirlikdən mediaya verilən rəsmi məlumatda göstərilir ki, onun mərkəzi aparatının inzibati binasında yenidənqurma işləri üçün 2007-ci ilin investisiya xərclərindən 3313,8 min manat ayrılıb.[12] Bu isə Nazirlər Kabinetinin müvafiq sərəncamında qeyd olunan məbləğdən 1313,8 min manat çox olmaqla fəqrlənir.*

## 2.4. Mərkəzi Seçki Komissiyasının yeni inzibati binasının tikintisi

2008-ci ilin büdcə investisiya xərclərindən MSK-ya yeni inzibati binasının tikintisi üçün 20000,0 min manat ayrılıb.[13] Bu məbləğ həmin ildə büdcə investisiya xərclərindən inzibati binaların təmir-tikintisi üçün ayrılmış cəmi vəsaitin 6,11%-nə bərabərdir. Eyni məqsədlə 2007-ci ilin büdcə investisiya xərclərindən Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli 42s saylı sərəncamına 2 saylı əlavə ilə 4500,0 min manat ayrılıb. Beləliklə də, 2007-2008-ci illərdə MSK-nın yeni inzibati binanın tikintisi üçün 24500,0 min manat büdcə vəsaiti ayrılıb.

## 2.5. İqtisadi İnkişaf Nazirliyinin yeni inzibati binasının tikintisi

2008-ci ilin büdcə investisiya xərclərindən İİN-nə inzibati binalarınnın tikintisi və təmiri məqsədilə 12000,0 min manat ayrılıb.[14] Bunun 7000,0 manatı Nazirliyin regional şöbələrinin və başqa inzibati binalarının əsaslı təmiri, yenidən qurulması və tikintisi, 5000,0 min manatı isə Nazirliyə yeni inzibati binanın tikintisi üçün nəzərdə tutulub. 2007-ci ilin büdcə investisiya xərclərindən isə İİN-ə eyni məqsədlə 4372,3 min manat ayrılıb və bunun 500,0 min manatı yeni inzibati binanın tikintisi, qalan 3872,3 min manatı isə regional şöbələrinin və başqa inzibati binaların təmir-tikintisi üçün nəzərdə tutulub.[15]

Beləliklə də, son iki ildə İİN-ə regional şöbələrinin və başqa inzibati binaların təmir-tikintisi üçün 10872,3 min manat, yeni inzibati binasının tikintisi üçünsə 5500,0 min manat ayrılıb.

---

[10] Nazirlər Kabinetinin 6 fevral 2008-ci il tarixli 44s saylı sərəncamına 1-ci əlavə
[11] Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli 42s saylı sərəncamına 1-ci əlavə
[12] "Azadlıq" radiosunun 21 aprel 2009-cu il tarixli "Şəffaflıq" verilişi
[13] Nazirlər Kabinetinin 6 fevral 2008-ci il tarixli 44s saylı sərəncamına 1-ci və 2-ci əlavə
[14] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 fevral 2008-ci il tarixli 44s saylı sərəncamı (1 saylı əlavə)
[15] Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli 42s saylı sərəncamına 1-ci əlavə

- ✓ *Lakin İİN-dən AİYİB-in monitorinqlə əlaqədar göndərdiyi sorğuya verilən cavabda göstərilir ki, Nazirlik üçün yeni inzibati binanın tikintisi aparılmayıb və bu məqsədlə ayrılmış 5500,0 min manat vəsait büdcəyə geri qaytarılıb.*

## 3.İnzibati binaların təmir-tikinti layihələrinin korrupsiya riski üzrə monitorinqi

Dövlət büdcəsinin investisiya xərcləri çərçivəsində inzibati binaların tikintisi, təmiri və yenidənqurulması layihələrinin monitorinqi a) tədqiqat, b) informasiya sorğusu və c) müşahidə üsullarından istifadə edilməklə aparılıb. Monitorinq zamanı seçilmiş 5 hökumət qurumunun inzibati binalarının tikintisi və təmirinə ayrılmış vəsaitlər üzrə təhlil aparılıb, həmin qurumlara İnformasiya əldə etmək haqqında qanunun tələblərinə uyğun olaraq informasiya sorğusu göndərilib, monitorinqin predmeti olan inzibati binalarda aparılmış tikinti və təmir işlərinin nəticəsi müşühidə edilib və fotoçəkiliş aparılıb.

Monitorinq nəticəsində əldə edilmiş məlumatların qiymətləndirilməsi isə xüsusi indikatorlar əsasında aparılıb. Bu indikatorlar aşağıdakılardır:

| **Sıra №-si** | **İndikatorlar** | **Qiymətləndirmə göstəricisi** |
|---|---|---|
| 1 | Layihənin məqsədi | Var, Yoxdur |
| 2 | Layihə-smeta sənədləri | Var, Yoxdur |
| 3 | Podratçının seçimi | Tenderlə, Tendersiz |
| 4 | Layihədən kənarlaşmalar | Olmayıb, Olub |
| 5 | Keyfiyyət standartları | Tətbiq edilib, Tətbiq edilməyib |
| 6 | İctimaiyyət üçün hesabatlıq (məlumat) | Var, Yoxdur |
| 7 | Layihə üzrə məlumatlara çıxış | Var, Yoxdur |
| Yekun | **Korrupsiya riski** | **Aşağı, Orta, Yüksək** |

Yekun “Korrupsiya riski” indikatoru 7 indikatorun icra göstəricilərinin uzlaşdırılması və orta mövqeyi kimi müəyyənləşir.

### 3.1.Ekologiya və Təbii Sərvətlər Nazirliyi

| Monitorinq sualları | Nazirliyin cavabları[16] | Müşahidələr və cabavların təhlili | Nəticələr |
|---|---|---|---|
| 1.Nazirliyin təmir, tikinti və ya yenidənqurma işləri aparılan inzibati binaları (ünvanları göstərilməklə) hansılardır? | Nazirliyin təmir, tikinti və yenidənqurma işləri aparılan inzibati binaları Bakı şəhəri B.Ağayev küçəsi 100A və H.Əliyev prospekti 50 ünvanlarında yerləşirlər. | | |
| 2.Nazirliyin inzibati binalarında təmir, tikinti və ya yenidənqurma işlərinə ehtiyac yarandığı hansı instansiyada və hansı meyarlarla müəyyən edilib? | Təmir, tikinti və yenidənqurma işlərinə ehtiyac B.Ağayev küçəsi 100A ünvandakı inzibati binanın yerləşdiyi H.Cavid meydanı ərazisinin ümumi ansamblına uyğunlaşdırılması, H.Əliyev prospekti 50 ünvanındakı binanın isə müasir standartlara cavab verən görünüşdə rekonstruksiya olunması baxımından yaranıb. | Göründüyü kimi, nazirliyin inzibati binalarının yenidənqurulmasına zərurət əsaslandırılmayıb, məqsəd aydın deyil. Nazirliyin cavabında görülən işlər binaların görünüşü ilə izah edilir. Bununla belə nazirliyin Cavid meydanindakı binasının xarici görkəmi əvvəllər də normal idi. O biri tərəfdən, kifayət qədər iri əsas binaya malik olsa da, nazirliyin 13 mərtəbəli ikinci bir inzibati binaya nədən ehtiyacı yarandığı da aydın deyil. | **Nazirliyin inzibati binalarının yenidənqurulmasının proqram məqsədi aydın deyil.** |
| 3.Nazirliyin inzibati binalarında təmir, tikinti və ya yenidənqurma işlərinin aparılmasına kim və nə vaxt qərar verib? | Bu, Nazirlər Kabineti tərəfindən müəyyən edilib. | Nazirlikdən qərarın tarixi və sayı barədə məlumat almaq mümkün olamayıb. | |

[16] ETSN-nin 1 dekabr 2008-ci il tarixli 4/2811-11 saylı məktubu

| | | | |
|---|---|---|---|
| 4.Dövlət əsaslı xərclərinin bölgüsünə dair Nazirlər Kabinetinin sərəncamları ilə nazirliyin inzibati binalarının təmiri və tikintisi üzrə ayrılmış vəsaitlər inzibati binalar üzrə necə bölüşdürülüb. | 2007-ci ildə dövlət investisiya xərcləri hesabına Nazirlər Kabinetinin 19.02.2007-ci il tarixli 42s və 25.06.2007-ci il tarixli 168s saylı sərəncamları ilə Bakı şəhəri H.Əliyev prospekti 50 ünvanında yerləşən inzibati binanın əsaslı təmiri və tikintisinə 1610,5 min manat, B.Ağayev küçəsi 100A ünvanında yerləşən inzibati bina kompleksinin təmirinə 2500,0 min manat vəsait ayrılıb.<br>2008-ci ildə dövlət investisiya xərcləri hesabına Nazirlər Kabinetinin 44 s saylı 6 fevral 2008-ci il tarixli sərəncamı ilə nazirliyin inzibati binalarının təmirinə 940,0 min manat vəsait ayrılıb və həmin vəsait müvafiq qaydada bölüşdürülərək B.Ağayev küçəsi 100A ünvanında yerləşən inzibati binaya 440,0 min manat və H.Əliyev prospekti 50 ünvanında yerləşən inzibati binaya 500,0 min manat nəzərdə tutulub. | 2007-2008-ci illərdə nazirliyə inzibati binaların tikintisi və təmiri başlığı altında 15050,5 min manat ayrılıb. Amma nazirliyin cavabında bunun 5050,5 min manat olduğu qeyd olunur. Bununla bağlı AİYİB nazirliyə əlavə informasiya soğusu göndərib. Nazirlik rəsmi şəkildə bildirib ki, Nazirlər Kabinetinin 6 fevral 2008-ci il tarixli 44s saylı sərəncamına 2 saylı əlavədə ETSN-ə yeni inzibati şəhərciyin salınması məqsədilə ayrıldığı göstərilən 10000 min manat əslində bu məqsədlə yox, "XXI əsrin ekoloji cəhətdən davamlı yaşayış məntəqəsi" adlı layıhənin reallaşdırılması üçün ayrılıb.[17] | **ETSN-ə ayrılmış 10 mln. manatın təyinatı ilə bağlı Nazirlər Kabinetinin 6 fevral 2008-ci il tarixli 44s saylı sərəncamı ilə nazirliyin 29 dekabr  2008-ci il tarixli 4/3052-11 saylı məktubu arasında uyğunsuzluq var.** |

[17] ETSN-nin 29 dekabr  2008-ci il tarixli 4/3052-11 saylı məktubu

| | | | |
|---|---|---|---|
| 5.Nəzərdə tutulan işlər üçün nə qədər maliyyə vəsaitinin tələb olundugu kim tərəfindən və hansı meyarlarla müəyyən edilib? | Görülməli işlər üçün maliyyə vəsaitinin məbləği Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq işlənilib və ekspertizadan keçirilmiş layihə smeta sənədlərinə əsasən müəyyən edilib. | | |
| 6.Nazirliyin təmir-tikinti və ya yenidənqurma işləri aparılan inzibati binaları buna qədər axırıncı dəfə nə vaxt təmir olunub? | Nazirliyin B.Ağayev küçəsi 100A ünvanında yerləşən mərkəzi aparatının inzibati binası axırıncı dəfə 2001-ci ildə dövlət büdcəsindən ayrılan vəsait hesabına qismən cari təmir edilib. Həmin vaxt bina istifadəyə tam yararsız vəziyyətdə olub. H.Əliyev prospekti 50 ünvanında yerləşən 13 mərtəbəli inzibati bina isə yarımçıq tikili olaraq Nazirliyin balansına verilib və həmin binada 2006-cı ilədək təmir işləri aparılmayıb. | | |
| 7.İnzibati binalarda təmir, tikinti və ya yenidənqurma işlərini hansı şirkət (və ya şirkətlər) həyata keçirib? | B.Ağayev küçəsi 100A ünvanında yerləşən inzibati binanın təmiri "Azimport" MMC, H.Əliyev prospekti 50 ünvanında yerləşən inzibati binanın təmiri "Asnaf Sənaye Şirkəti" tərəfindən həyata keçirilir. | Hər iki şirkət Azərbaycanda dövlət investisiya xərcləri çərçivəsində həyata keçirilən tikinti, yenidənqurma və abadlıq işləri üzrə onadək layihənin podratçısıdır. Onlar bu layihələrin icrasını tender əsasında deyil, dövlət qurumlarının qərarları əsasında həyata keçirirlər. | **İcraçı şirkətlər tender keçirilmədən başqa dövlət investisiya layihələrinin də icrasını həyata keçirirlər.** |

| | | | |
|---|---|---|---|
| 8.Podratçı şirkətin (və ya şirkətlərin) seçilməsi üçün tender keçirilibmi? Keçirilibsə nə vaxt, hansı şərtlərlə, neçə iştirakçı (adları göstərilməklə) arasında keçirilib və qalib nə vaxt seçilib? | Satınalmalar üzrə Dövlət Agentliyinin razılıq məktubuna əsasən və mövcud qanunvericiliyə uyğun olaraq qeyd edilən şirkətlər podratçı olaraq müəyyənləşiblər | Podratçıların seçılməsi üçün tender keçirilməyib. Layihələrin dəyəri 50 min manatdan yuxarı olduğundan, ETSN-nin apardığı seçim üsulu "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 29 yanvar 2002-ci il tarixli (№ 668) prezident fərmanının 2-ci bölməsinin 1-ci hissəsi ilə ziddiyyət təşkil edir. | **Tender qanunvericiliyi pozulub** |
| 9.İşlərin görülməsi üçün nəyə görə məhz bu podratçıya (və ya podratçılara) üstünlük verilib? | Qeyd olunan şirkətlər seçilərkən, onların Bakı şəhərində, o cümlədən H.Cavid meydanı və onun ətraf ərazilərinin yeniləşdirilməsi və abadlaşdırılması işlərinin həyata keçirilməsində iştirak etdikləri və habelə apardıqları təmir-tikinti işlərinin keyfiyyət və dəyər baxımından daha optimal olduqları nəzərə alınıb. | Tender keçirilmədiyindən, bu şirkətlərin ən azı optimal qiymətlər təklif etdiyini müəyyənləşdirmək çətindir | |
| 10. Ayrılmış vəsaitlərin nə qədəri mal və materialların alınmasına, nə qədəri xidmət haqqının ödənməsinə sərf olunub? | *Bu suala nazirlikdən cavab almaq mümkün olmayıb.* | Nazirliyə sonrakı müraciətlər zamanı belə məlum oldu ki, 2008-ci ilin büdcə investisiya xərclərindən ETSN-nin inzibati binalarının təmir-tikintisi üçün ayrılmış vəsaitin hamısı təmir-tikinti işlərini aparan podratçı şirkətlərin hesabına köçürülüb. | |

| | | | |
|---|---|---|---|
| 11.Nazirliyin hansı inzibati binalarında təmir, tikinti və ya yenidənqurma işləri artıq başa çatıb? | Nazirliyin hər iki ünvandakı inzibati binasında təmir-tikinti işləri başa çatıb, yalnız istilikxanaların tikintisi qalıb. H.Əliyev prospekti 50 ünvanında yerləşən inzibati binada 1 mərtəbəli 300 yerlik akt zalı, 400 m2-lik iclas zalları inşa edilib. | 2007-ci ildən başlanmasına baxmayaraq, nazirliyin inzibati binalarının təmir işləri başa çatmayıb. 2009-cu ilin büdcəsindən bu tədbirlərə əlavə vəsait ayrılması nəzərdə tutulub. | |
| 12.Başa çatmış işlər nə zaman və hansı meyarlarla təhvil alınıb? | Görülmüş işlərin təhvil alınması ilə nazirliyin təmir-tikinti işlərinə nəzarət edən xüsusi mütəxəssislər qrupu məşğul olur. | Görülmüş işlərin təhvil verilməsi zamanı hansı standartların tətbiq edildiyi barədə nazirlikdən məlumat almaq mümkün olmayıb. Belə aydın olur ki, təhvil zamanı nazirliyin mütəxəssisləri görülmüş işləri nəzərdən keçirir və rəy verirlər. Bu zaman xüsusi keyfiyyət standartları tətbiq edilmir. | **Görülmüş işlər xüsusi standarstlar əsasında deyil, mütəxəsislər qrupunun subyektiv rəyi əsasında təhvil götürülür.** |
| 13.Davam edən təmir, tikinti və ya yenidənqurma işləri üçün nə qədər əlavə maliyyə vəsaiti tələb olunur və bu vəsaitlər hansı mənbələr hesabına təmin edilməlidir? | Nazirliyin inzibati binalarında təmir-tikinti və yenidənqurma işlərinin tamamlanması üçün 2009-cu ilə əlavə tələb olunan vəsait barədə hazırlanmış məlumatlar 2009-2012-ci illərin İnvestisiya Proqramına daxil edilməsi məqsədi ilə Respublika Nazirlər Kabinetinə, İqtisadi İnkişaf Nazirliyinə, Maliyyə Nazirliyinə təqdim edilib. | Nazirlik 2009-cu ilin büdcəsindən inzibati binalarının istilikxanalarının tikintisi məqsədilə 400,0 min manat ayrılması ilə bağlı Nazirlər Kabinetinə, İqtisadi İnkişaf Nazirliyinə, Maliyyə Nazirliyinə müraciət edib. | **Nazirliyə ayrılmış vəsaitlər inzibati binaların təmiri və yenidənqurulması işlərini başa çatdırmaq üçün kifayət etməyib. 2009-cu ildə ETSN-ə layihələrin tamamlanması üçün əlavə vəsait ayrılıb.** |

| | | | |
|---|---|---|---|
| 14.Təmir, tikinti və ya yenidənqurma işləri görülərkən layihədə nəzərdə tutulanlardan kənara çıxmalar olubmu? Əgər olubsa hansı səbəbdən? | Layihə smeta sənədlərində nəzərdə tutulanlardan kənara çıxmalar olmayıb. | | |

### 3.2.Dövlət Statistika Komitəsi

| Monitorinq sualları | Komitənin cavabları[18] | Müşahidələr və cavabların təhlili | Nəticələr |
|---|---|---|---|
| 1.Komitənin inzibati binasının əsaslı təmirinə zərurətin olduğu hansı instansiyada və hansı meyarlarla müəyyənləşdirilib? | Komitənin inzibati binasının əsaslı təmirinə işçilərin əmək şəraitinin yaxşılaşdırılmasına dair Dövlət Proqramı, 1967-ci ildə tikilib istifadəyə verilmiş inzibati binanın təmirə ehtiyacı zərurətinin olması səbəb olub. | DSK informasiya sirğusuna cavab verərkən "Əmək şəraitinin yaxşılaşdırılmasına dair" Dövlət Proqramını da təqdim edib. | |
| 2.Təmir işlərinin aparılması barədə qərarı kim və nə vaxt verib? | Təmir işlərinin aparılması Nazirlər Kabinetinin 19.02.2007-ci il tarixli 42s və 06.02.2008-ci il tarixli 44s saylı sərəncamlarına əsasən aparılıb. | Nazirlər Kabinetinin bu sərəncamında DSK-nin inzibati binasının təmirinə dair hansısa qərar yoxdur. Bu sərəncamlar artıq qərarı verilmiş layihə və istiqamət üzrə vəsait ayrılmasını nəzərdə tutur. | |
| 3.Layihə təsdiqlənərkən təmir işlərinin nələrdən ibarət olması nəzərdə tutulub? | Təmir işləri dam örtüyünün dəyişdirilməsi, binada daxili bəzək işləri, döşəmə və dəhliz foyelərdə örtüklərin sökülüb yenidən parket örtükləri ilə düzəldilməsi, qazanxana binasının tikilməsi, istilik qazanlarının, daxili istilik sisteminin quraşdırılması, ehtiyat və əsas pilləkən qəsəfəsində döşəmə, pillə və divarların mərmər örtüklə düzəldilməsi, poliqrafiya şöbəsində divarların bəzək işləri, döşəmələrin laminat və parket örtükdən | Qeyd olunan təmir işləri həyata keçirilsə də, DSK-nin inzibati binasının birinci mərtəbəsində təmirin əhatəli aparılmadığı görünür. Birinci mərtəbədə, binanın girişi istisna olmaqla qalan hissə əvvəlki vəziyyətdə qalmaqdadır. Bunun da yaxın dövrlərdə inzibati binada yeni təmir işlıərinə zərurət yaradacağı istisna deyil. | **Təmir işləri inzibati binanı tam əhatə etməyib.** |

[18] Dövlət Statistika Komitəsinin 7 aprel 2009-cu il tarixli məktubu

| | | | |
|---|---|---|---|
| | düzəldilməsi, istinad divarına və pillələrə ağlay üzlüyün vurulması, 73 tonluq su çəninin quraşdırılması, dəmir darvazanın və 4 ədəd dəmir qapıların quraşdırılması, binanın həyətində divarların təmir olunub rənglənməsi, həyətə asfalt örtüyün vurulması, lift ətrafı və binanın həyətində iki divarın alkopan tavalarla üzlənməsi, inzibati binada və tipoqrafiyada 174 ədəd avropa tipli qapıların quraşdırılması və digər işlərdən ibarət olub. | | |
| 4.Layihə üzrə nəzərdə tutulan işlərə sonradan əlavələr olubmu və olubsa, hansı əlavə işlər görülüb? | Layihə üzrə nəzərdə tutulan işlərə sonradan əlavələr olmayıb. | | |
| 5.Təmir işləri üçün nə qədər maliyyə vəsaitinin tələb olunduğu hansı instansiyada və hansı meyarlarla müəyyən edilib? | Təmir işləri üçün nə qədər maliyyə vəsaitinin tələb olunduğunu müəyyən edən instansiya və meyarlar Nöqsan aktı, Layihə institutu tərəfindən hazırlanmış smeta, qiymətqoyma mərkəzi tərəfindən təyin olunmuş əmsal, Maliyyə və İqtisadi İnkişaf Nazirliyi tərəfindən Nazirlər Kabinetinə təqdim olunmuş təklifdən ibarətdir. | Burada hansı layihə institutundan və qiymətqoyma mərkəzindən söhbətin getdiyini aydınlaşdırmaq mümkün olmayıb. | |

| | | | |
|---|---|---|---|
| 6.Təmir işlərinin aparılmasına 2007 və 2008-ci illər üzrə ayrı-ayrılıqda nə qədər maliyyə vəsaiti ayrılıb? | Təmir işlərinin aparılmasına 2007-ci ildə 484,2 min manat, 2008-ci ildə isə 1500,0 min manat ayrılıb. | Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli 42s saylı sərəncamına 1-ci əlavədə Dövlət Statistika Komitəsinin inzibati binasının təmiri üçün 200,0 min manatın ayıldığı göstırilir. Komitənin 7 aprel 2009-cu il tarixli məktubunda isə həmin sərəncamla 484,2 min manat ayrıldığı göstərilir. Bu isə Nazirlər Kabinetinin yuxarıda qeyd edilən sərəncamında qeyd olunan məbləğdən 278,2 min manat artıq olmaqla fərqlənir. | **DSK-nın inzibati binasının təmirinə ayrılmış vəsaitlərlə bağlı Komitənin 7 aprel 2009-cu il tarixli məktubu ilə Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli 42s saylı sərəncamına 1-ci əlavə ziddiyyət təşkil edir.** |
| 7.Nəzərdə tutulan işlər hansı həcmdə yerinə yetirilib? | Nəzərdə tutulan işlər tam həcmdə yerinə yetirilib. | | |
| 8.Təmir işlərinin yerinə yetirilməsi üçün 2007 və 2008-ci illər üzrə ayrı-ayrılıqda nə qədər vəsait xərclənib? | Təmir işlərinin yerinə yetirilməsi üçün 2007-ci ildə 484,2 min manat, 2008-ci ildə isə 1500,0 min manat xərclənib. | | |
| 9.Ayrılmış vəsaitlərin nə qədəri mal və materialların alınmasına, nə qədəri xidmət haqqının ödənməsinə sərf olunub? | Xərclənən vəsaitin 1620,0 min manatı mal və materialların alınmasına, 361,0 min manat isə xidmət haqqı ödənilməsinə sərf olunub. | | |
| 10.Təmir işlərini hansı podratçı şirkət aparır? | Təmir işlərini "MİA" MMC aparıb. | Layihənin podratçısı olan "MİA" MMC şirkəti ilə bağlı hər hansı məlumat toplamaq mümkün olmayıb. Bu şirkət barədə internet resurslarında bircə məlumat belə yoxdur. | |

| | | | |
|---|---|---|---|
| 11.Podratçının seçilməsi üçün tender keçirilibmi və keçirilibsə nə vaxt elan edilib, şərtlər nədən ibarət olub, tenderdə neçə şirkət (adları sadalanmaqla) iştirak edib, qalib nə vaxt seçilib? | Podratçının seçilməsi üçün tender keçirilib. Tender 02.05.2008-ci ildə elan edilib. Təmir işlərinin yüksək keyfiyyətlə görülməsi, maya dəyərinin ucuz olması şərti qoyulub. 3 təşkilat iştirak edib – “MİA” MMC, “Qaytaranlı” MMC və “Lesko LTD” MMC. | Podratçı ilə yanaşı tenderdə iştirak edən şirkətlərin biri – “Qaytaranlı” MMC haqqında heç bir məlumat toplamaq mümkün olmayıb və internet resurslarında bu şirkət barədə də heç bir məlumat yoxdur. Tenderdə iştirak edən üçüncü şirkət - “Lesko LTD” MMC isə 2008-ci il fevralın 1-də (tenderdən 3 ay əvvəl) Sumqayıtda qeydiyyatdan keçib. MMC-nin nizamnamə kapitalının həcmi isə cəmi 50 manatdır. | **Tenderdə iştirak etmiş şirkətlərdən biri müsabiqədən 3 ay əvvəl yaranıb və onun nizamnamə kapitalı 50 manat təşkil edir.** |
| 12.Təmir işlərini aparmaq üçün niyə məhz bu podratçı şirkətə üstünlük verilib? | Analoji işlərdə təcrübəsi, görülən işlərin qiymətlərinin aşağı olmasını nəzərə alaraq “MİA” MMC qalib elan olunub. | Tenderdə qalib gəlmiş və layihəni həyata keçirmiş şirkət tanınmır və onun hansı üstünlüklərə malik olduğu barədə hər hansı məlumatlar tapmaq mümkün olmayıb. | |

### 3.3. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

ƏƏSMN informasiya sorğusuna cavab vermədiyindən, onun inzibati binasının yenidənqurulması üzrə layihənin monitorinqi iki – tədqiqat və müşahidə üsulları ilə aparılıb.

Nazirliyə məxsus inzibati binalarin yenidənqurulması üçün 12231,1 min manat ayrılıb. Bu vəsait hesabına nazirliyin Salatın Əsgərova 85 ünvanda yerləşən yeni inzibati binası yenidən qurulub və onun fasadı təmir edilib. Bununla belə artıq 8 aya yaxındır ki, təmir işləri yarımçıq qalıb. Binanın həm fasadının, həm girişi və birinci mərtəbəsinin, həm də qarşısındakı Azad Qadın heykəlinin ətrafında təmir işləri başa çatmayıb.

Təmir işlərini "Asnaf-Alkon" Qrupu həyata keçirir. Podratçının seçimi üzrə tender keçirilməsi barədə har hansı məlumat mövcud deyil.

Nazirlikdən mediaya verilən rəsmi məlumatda göstərilir ki, onun mərkəzi aparatının inzibati binasında yenidənqurma işləri üçün 2007-ci ilin investisiya xərclərindən 3313,8 min manat ayrılıb. Bu isə Nazirlər Kabinetinin müvafiq sərəncamında əks olunan uyğun məbləğdən 1313,8 min manat çoxdur. Beləliklə də nezirliyin mediaya rəsmi məlumatı Nazirlər Kabinetinin 19 fevral 2007-ci il tarixli 42s saylı sərəncamına 1-ci əlavə ilə ziddiyyət təşkil edir.

### 3.4. İqtisadi İnkişaf Nazirliyi

Bu monitorinq çərçivəsində İİN-in inzibati binasının tikintisi layihəsi izlənilməyib. Buna səbəb nazirliyin inzibati binasının ümumiyyətlə tikilməməsidir. Nazirlik AİYİB-ə rəsmi şəkildə bildirib ki: "Dövlət investisiya xərclərinin bölgüsünə dair Nazirlər Kabinetinin 2007-ci il 19 fevral tarixli 42s saylı və 2008-ci il 6 fevral tarixli 44s saylı sərəncamları ilə İqtisadi İnkişaf Nazirliyinə yeni inzibati binanın tikintisi üçün 5,5 mln. manat ayrılmışdır. 2008-ci ildə İqtisadi İnkişaf Nazirliyi üçün yeni inzibati bina tikilməmişdir. Bu məqsədlə ayrılmış vəsait isə bütünlükdə dövlət büdcəsinə qaytarılmışdır. 2009-cu ildə Nazirlik üçün yeni inzibati binanın tikintisi nəzərdə tutulmur."[19]

### 3.5. Mərkəzi Seçki Komissiyası

Bu monitorinq çərçivəsində MSK-nın yeni inzibati binasının tikintisi layihəsini izləmək mümkün olmayıb. MSK, bu monitorinq çərçivəsində AİYİB-in göndərdiyi informasiya sorğusunu cavablandırmaqdan imtina edib. Layihə ilə bağlı 2-ci bölmədə qeyd olunanlardan əlavə hər hansı məlumat toplamaq mümkün olmayıb.

---

[19] İqtisadi İnkişaf Nazirliyinin AİYİB-ə 29 yanvar 2009-cu il tarixli 16/06-5/7-5/208 saylı məktubu

**4. İnzibati binaların təmir-tikinti layihələri üzrə korrupsiya riskinin qiymətləndirilməsi**

| Sıra №-si | İndikatorlar | Dövlət qurumları | | |
|---|---|---|---|---|
| | | **ETSN** | **DSK** | **ƏƏSMN** |
| 1 | Layihənin məqsədi | Yoxdur | Var | Yoxdur |
| 2 | Layihə-smeta sənədləri | Var | Var | Yoxdur |
| 3 | Podratçının seçimi | Tendersiz (DSA ilə razılaşdırma) | Tenderlə | *Məlumat yoxdur* |
| 4 | Layihədən kənarlaşmalar | Olmayıb | Olmayıb | Olub |
| 5 | Keyfiyyət standartları | Tətbiq edilməyib | Tətbiq edilməyib | Tətbiq edilməyib |
| 6 | İctimaiyyət üçün hesabatlıq (məlumat) | Yoxdur | Yoxdur | Yoxdur |
| 7 | Layihə üzrə məlumatlara çıxış | Var | Var | Yoxdur |
| Yekun | **Korrupsiya riski** | **Orta** | **Orta** | **Yüksək** |

Yekun Hesabat
Açıq Cəmiyyət İstitutu Yardım Fondunun
dəstəyi ilə hazırlanıb

free.economy@gmail.com
www.freeeconomy.az